

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 10 dekabr 2022-ci il №95 (2706) https://mod.gov.az Qiyməti 30 qəpik


## Xalqa, dövlətə, dövlətçiliyə görə yaşanılmış əbədiyyət ömrü

*Tarixi şəxsiyyətlər xalqın taleyi üçün yaşayır. Belə tarixi şəxsiyyətlərin ömrü xalqının ömrünə düşən işığa dönür. Bu işıq əbədiyyət işığıdı. Xalqımız bu işıqda dövlət oldu, bu işıqda yaşatdı dövlətçiliyini...*



Əsrlər boyu formalaşmış milli-mənəvi dəyərlər də belə tarixi şəxsiyyətlərin əvəzsiz xidmətləri ilə yaşadılıb...

Qürurla "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" deyən, bu amalıyla hamıya örnək olan, həyatının mənasını xalqa və dövlətə xidmətdə görən Ümummilli Lider Heydər Əliyev məhz belə dahilərdən olub...

Şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti olmur. Onlar heç bir zaman və məkana sığmırlar. Bu fikir əsrlərin sınağından çıxaraq öz təsdiqini tapıb. Zaman sübut edir ki, xalqın tarixi, tarixi şəxsiyyətin ömür yolu ilə müəyyənləşdirilir...

Dahi tarixi şəxsiyyət Heydər Əliyevin tərcümeyi-halı Azərbaycanın son yüz illik tarixidir. O, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb.

Bir qərinədən də çox zaman kəsiyində Azərbaycana rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev Sovetlər dönəmində də, Azərbaycanın müstəqilliyi bərpa edildikdən sonra da xalqımızın sabahlarını düşünərək bu ali amal uğrunda mübarizə aparıb. Müstəqilliyin təməl daşlarını qoyub.

Bir əsrdə iki dəfə dövlət müstəqilliyi qazanan Azərbaycan az saylı ölkələrdəndir.

Milli-azadlıq hərəkatı genişlənəndə sovet imperiyası bu hərəkatı qəddarlıqla yatırtmaq istədi. 20 Yanvar faciəsini törətdi. 1990-cı il yanvarın 21-də dahi tarixi şəxsiyyət Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinin qarşısında keçirilən mitinqdə son dərəcədə kəskin siyasi bəyanatla çıxış etdi. Bu çıxış azərbaycançılığın təsdiqi idi...

Azərbaycanda milli qarşıdurma, separatçılıq son dərəcədə kəskinləşmişdi. Onda xalq Azərbaycanın dövlətçiliyini qorumaq üçün böyük tarixi şəxsiyyət Heydər Əliyevi təkidlə hakimiyyətə dəvət etdi.

Vətəndaş müharibəsinin astanasında olan Azərbaycan, bunlara və separatizm cəhdlərinə görə müstəqilliyini itirmək təhlükəsi ilə qarşılaşdı. Bu vəziyyət 1993-cü ilə qədər davam etdi. 1993-cü ilin iyununda Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlməsindən sonra ölkəmizdə xaotik proseslərin qarşısı alındı - ictimai-siyasi sabitlik təmin edildi. Azərbaycan xalqının və dövlətinin tarixində özünəməxsus yer tutmasını, gerçək müstəqilliyini əldə edərək qoruyub saxlamasını təmin edən dahi şəxsiyyət Ulu Öndər Heydər Əliyev olmuşdur.

Ölkəmizdə ictimai-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Lider Heydər Əliyevin azərbaycançılığı, inkişaf strategiyası, müəyyənləşdirdiyi daxili və xarici siyasət dayanır. Ulu Öndərin istər SSRİ dönəmində, istərsə də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə respublikamızın iqtisadi və sosial tərəqqisinin təmin olunması, xalqın rifahının daha da yaxşılaşdırılması istiqamətində tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb.

Müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan dünya şöhrətli siyasətçi və böyük dövlət xadimi, Ümummilli Lider Heydər Əliyev çağdaş tariximizdə əbədiləşmiş, respublikamıza rəhbərliyinin bütün dövrlərində Vətən və xalq qarşısında misilsiz xidmətlər, xilaskarlıq missiyası, zəngin dövlətçilik nümunəsi göstərmişdir. Azərbaycan 1993-cü ildən bu günə qədər inkişaf yolunda əmin addımlarla irəliləyir, möhtəşəm nailiyyətlər əldə edərək yeni zirvələr fəth edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin vurğuladığı kimi: "1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir".

1993-cü il oktyabrın 3-də ölkəmizdə keçirilən prezident seçkilərində Ümummilli Lider Heydər Əliyev xalqımızın böyük əksəriyyətinin etimadını qazanaraq 98,84 faiz səslə Azərbaycan Respublikasının Prezidenti seçildi. Bundan sonra Ulu Öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində ölkəmizdə ictimai-siyasi sabitlik təmin edildi, sosial-iqtisadi vəziyyət yaxşılaşdırıldı, inkişafın dinamik əsası qoyuldu.

1994-cü il mayın 12-də cəbhədə atəşkəsin əldə edilməsindən sonra dövlətçiliyin möhkəmləndirilməsi, nizami ordu quruculuğu, eləcə də ölkə həyatının bütün sahələrində dinamik inkişafın təmin edilməsi baxımından zəruri tədbirlər görüldü. Reallaşdırılan, ardıcıl və sistemli tədbirlərin nəticəsi kimi, ölkədə əmin-amanlıq yarandı, sabitlik bərqərar oldu, azad bazar iqtisadiyyatına keçidlə bağlı özəlləşdirməyə geniş şərait yaradıldı, geniş miqyaslı islahatlara başlanıldı. Böyük İpək Yolunun bərpası, Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizlərinin açılması, Xəzər hövzəsinin karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına nəql edilməsi layihələri həyata keçirildi. 1994-cü il sentyabrın 20-də Azərbaycanın ən yeni tarixində dönüş nöqtəsi olan neft müqavilələri imzalandı. "Əsrin müqaviləsi" adlandırılan bu Saziş ölkəmizin gələcək inkişafına və təhlükəsizliyinə etibarlı zəmin yaratdı, Azərbaycanın dünya xəritəsindəki mövqeyini möhkəmləndirdi.

Ulu Öndərin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu, Azərbaycanın müasir müstəqil dövlət kimi inkişafı baxımından çox mühüm əhəmiyyətə malikdir. Təkmil siyasi sistemin, hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu prosesinin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, eyni zamanda, milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması bu kontekstdə xüsusilə vurğulanmalıdır.

1995-ci il noyabrın 12-də keçirilən referendumla müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyası qəbul edildi. Zaman keçdikcə demokratik yolla prezident, parlament və bələdiyyə seçkiləri keçirildi. Qanunvericilik sahəsində aparılan hüquqi islahatlar nəticəsində şəxsiyyət azadlığı və toxunulmazlığına təminat yaradıldı. Siyasi plüralizm, söz və vicdan azadlığına geniş meydan açıldı, mətbuat üzərindən senzura götürüldü. Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm hökmü ləğv edildi. Siyasi-iqtisadi və sosial-mədəni həyatın bütün sahələrində Avropa Şurasının tələbləri baxımından dəyişikliklərə əsaslı zəmin yaradıldı. Azərbaycan 2000-ci il yanvarın 25-də Avropa Şurasına üzvlüyə qəbul olundu.

Ümummilli Liderimiz Heydər Əliyevin 1993-2003-cü illərdə gördüyü möhtəşəm işlər Azərbaycana rəhbərliyinin birinci dövründəki xidmətlərinin davamı kimi qiymətləndirilir. Əminliklə deyə bilərik ki, ötən əsrin 90-cı illərinin əvvəllərində qazandığımız müstəqilliyin iqtisadi əsası 70-80-ci illərdə qoyulmuş möhkəm təmələ, güclü intellektual və iqtisadi potensiala söykənir.

(Ardı 2-ci səhifədə)

# Xalqa, dövlətə, dövlətçiliyə görə yaşanılmış əbədiyyət ömrü

**(Əvvəli 1-ci səhifədə)**



Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissəsindən biridir. Xalqımızın Ümummilli Liderinin müəllifi olduğu azərbaycançılıq ideologiyası sadəcə öz dövlətimizin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə etdi. Dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi.

Ulu Öndər Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, incəsənətinin cəfakeşlərindən idi. Neçə-neçə yazıçının, şairin, bəstəkarın, rəssamın abidələrinin ucaldılması da bu tarixi şəxsiyyətin adı ilə bağlıdır. Filosof-şair Hüseyn Cavidin nəşinin uzaq İrkutskdan Azərbaycana gətirilməsinin təşəbbüskar və icraçısı olan böyük tarixi şəxsiyyət üçün bir amal vardı: azərbaycançılıq...

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin mövcudluğu və şərəfli tarixi də dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər 1993-cü il oktyabrın 10-da andiçmə mərasimindəki çıxışında bu barədə danışaraq deyirdi: "Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək üçün qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir".

Müasir Azərbaycan Ordusunun formalaşması Heydər Əliyevin dövlətçilik təfəkkürünün, siyasi uzaqgörənliyinin və təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsidir. Milli ordu quruculuğu sahəsində Heydər Əliyev irsinin əvəzsiz dəyəri ondadır ki, bu dəyər başlanğıcını hələ Sovetlər dövründən götürüb. Azərbaycanın tarixi ənənələrinin davam etdirilməsi, gənclərin qəhrəmanlıq ənənələri əsasında formalaşması, sərkərdələrin və görkəmli hərb xadimlərinin şərəfli yolunun yaşadılması Heydər Əliyevin hər zaman diqqət mərkəzində olub.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin Sovet dövründə diqqət yetirdiyi ən ümdə məsələlərdən biri də SSRİ Silahlı Qüvvələri tərkibində azərbaycanlı zabitlərin məsul vəzifələrə irəli çəkilməsi məsələsi idi. O, azərbaycanlı zabitlərin Sovet qoşunlarında hansı vəzifələrdə olmasını və vəzifə təyinatlarında necə irəliləməsini daim izləyirdi. Çalışırdı ki, yüksək vəzifəli Sovet zabitləri arasında azərbaycanlılar da olsun. Xidmətləri və təşkilatçılığı ilə fərqlənən bir sıra zabitlərin və generalların daha yüksək və məsuliyyətli vəzifələrə təyin olunmasına Heydər Əliyev yardımçı olmuşdu və bunu özü də məmnunluqla xatırlayırdı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə Bakıda iki ali hərbi məktəb var idi: Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi və Bakı Ali Hərbi Dənizçilik Məktəbi. İttifaq miqyasında böyük nüfuza malik olan bu məktəblərin hər birində təhsil almaq üçün İttifaqın müxtəlif şəhərlərindən həmin məktəblərə axın güclü idi.

Heydər Əliyev Bakı Ali Ümumqoşun Komandirləri Məktəbinin rəhbərliyinə yüksək rütbəli azərbaycanlı kadrların gətirilməsinə nail oldu. Bu məktəbə qəbul olunanlar arasında azərbaycanlıların sayının artırılması üçün geniş təşkilati işlər aparıldı. Sovet dövründə milli zəmində aparılan hərbi-təşkilati işin ən gərəklisi Azərbaycanda general Cəmşid Naxçıvanski adına hərbi-internat məktəbinin açılmasıdır. Bu məktəbin açılması Ulu Öndər Heydər Əliyevin vaxt ötdükcə öz əhəmiyyətini daha da artıracaq tarixi nailiyyətinin, böyük dühanın öz xalqının gələcəyinə bağlılığının heç zaman unudulmayacaq nişanəsidir. Çox böyük maneələrə baxmayaraq, milli hərbi ənənələrin canlandırılması və gənclərin hərb işinə cəlb edilməsi üçün fövqəladə əhəmiyyətə malik olan belə bir təhsil ocağının açılması dahi şəxsiyyət Heydər Əliyevin mübarizliyinin, fədakarlığının təntənəsi idi. Bu məktəbin açılışına nail olmaq üçün Ümummilli Lider Heydər Əliyev həm də İttifaq rəhbərliyi ilə çarpışmadan qalib çıxdı və əslində, bu mübarizliyi ilə həmin məktəbdə təhsil alan azərbaycanlılar üçün də canlı bir örnək oldu.

Böyük tarixi şəxsiyyət Heydər Əliyev dəfələrlə demişdi ki, bütün varlığı ilə Vətəninə və xalqına qırılmaz tellərlə bağlıdır: "Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi özüm üçün ən əsas vəzifələrdən biri hesab edirəm. Heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini harada olursa-olsun, yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm".

Müstəqil Azərbaycan dövləti Ulu Öndərimizin şah əsəridir. O, Azərbaycanı dünyaya tanıdıb, dünyanı Azərbaycana gətirib. Azərbaycanı qorumaq üçün yaşayıb, Azərbaycanı yaşatmaq üçün qurub-yaradıb. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının Ümummilli Liderinə, üstəlik dünya siyasətinin nəhənglərindən birinə çevirib.

2001-ci ilin avqust ayında Azərbaycan Respublikasının Prezidentinin fərmanına əsasən fəaliyyət göstərən hərbi məktəblər Azərbaycan Ali Hərbi Məktəbi, Azərbaycan Ali Hərbi Təyyarəçilik Məktəbi və Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi adlandırılmışdır. Azərbaycan Republikası Prezidentinin 10 mart 2004-cü il tarixli fərmanına əsasən, məktəb Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin adını daşıyır.

Hamımız üçün fərəhlidir ki, Azərbaycan xalqı üçüncü minilliyə öz müstəqil dövləti ilə qədəm qoymuşdur. Minilliyin başlanğıcında Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı dövlətçilik, iqtisadi-siyasi, sosial-mədəni sahələrdə böyük uğurlar qazandı, dünya birliyində öz yerini möhkəmlətdi.

Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda görülən işləri və əldə edilən nailiyyətləri onu deməyə əsas verir ki, Ulu Öndər Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

Ümummilli Lider Heydər Əliyev müəyyənləşdirdiyi milli inkişaf kursunu özündən sonra inamla davam etdirə biləcək layiqli siyasi davamçısını yetişdirdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət başçısı kimi fəaliyyət göstərdiyi müddətdə həm Ümummilli Liderin, həm də xalqın ona bəslənən ümidlərini tamamilə doğrultdu. Azərbaycanda bütün sahələrdə aparılan islahatlar daha da dərinləşdi, ölkəmiz dinamik inkişaf yoluna çıxarıldı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ probleminin həlli istiqamətində Ümummilli Lider Heydər Əliyevin başladığı siyasi kursu yüksək peşəkarlıq və uğurla başa çatdırdı. Müzəffər Ali Baş Komandanın sərkərdəliyi ilə rəşadətli Azərbaycan Ordusu 30 illik həsrətə 44 gündə son qoyaraq işğal olunmuş əzəli və əbədi torpaqlarımızı azad etdi.

Bütün bunlar göstərir ki, Ulu Öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğu sahəsində əsasını qoyduğu siyasət bu gün uğurla davam etdirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Sərəncam imzalayıb. Dahi rəhbərin anadan olmasının 100-cü ildönümü ərəfəsində bunu qürurla bir daha qeyd etmək yerinə düşər ki, əbədiyaşar lider Heydər Əliyevin adı Azərbaycan xalqının milli şüurunda müasir Azərbaycanın yaradıcısı kimi həkk olunub. Heydər Əliyev Azərbaycanda böyük bir ideologiyanın, milli dövlətçilik fəlsəfəsinin və milli mənlik şüurunun formalaşmasının əsasını qoyub, bu isə xalq-iqtidar birliyinin möhkəm təmələ əsaslandığını, sarsılmaz və əbədi olduğunu bir daha təsdiqləyir.

Xalqın yaddaşında yaşamaq ömürdən sonra yaşanılan ömürdür...

Ulu Öndər Heydər Əliyev ömrü əbədiyyət ömrüdür. Xalqa görə, dövlətə görə, dövlətçiliyə görə...

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun döyüş taktikası Yaponiya mediasının diqqətindədir

*Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsində tətbiq etdiyi uğurlu döyüş taktikası və müasir silahlardan istifadə bacarığı bütün dünya ilə yanaşı, Yaponiya mediasının da diqqətindədir.*

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qalib ordumuzun Vətən müharibəsində göstərdiyi qəhrəmanlıq, döyüş taktikası, düşmən hədəflərinin yüksək dəqiqliklə məhv etməsi bu gün də Yaponiyanın tanınmış hərbçiləri və kütləvi informasiya vasitələri tərəfindən böyük diqqətlə öyrənilir və təhlil edilir. Hazırda Rusiyanın Ukraynada apardığı hərbi əməliyyatlar bu mövzunun təkrar gündəmə gəlməsinə böyük təkan verib. Xüsusən hərbçilərimizin pilotsuz uçuş aparatlarından bacarıqla istifadə etməsi, düşmənin döyüş hədəflərinə yüksək dəqiqliklə endirdiyi zərbələr xüsusən hərbi mütəxəssislər tərəfindən təhlil edilir və diqqətlə öyrənilir. Məhz Azərbaycan Ordusunun həmin dronlardan yüksək ustalıqla istifadə etməsi bu PUA-lara olan marağı həddindən çox artırıb. Xüsusən mülki əhaliyə ziyan vurmadan düşmənin hərbi texnikasını və döyüş qüvvələrini məhv edən "Bayraktar-TB2", "Harop" kimi PUA-larla endirilən dəqiq zərbələrin videogörüntüləri Azərbaycan Müdafiə Nazirliyinə istinadla yapon izləyicilərə təqdim edilir. Bakıda keçirilən Zəfər paradında və Hərbi Qənimətlər Parkında nümayiş etdirilən Ermənistan hərbi texnikasının qalıqlarının məhz bu silahlar vasitəsilə məhv edildiyi qeyd olunur. Vurğulanır ki, həmin silahlar yalnız müasir dövrümüzün deyil, həm də gələcək müharibələrin əsas hərbi sursatı kimi xüsusi diqqətdə saxlanılmalıdır.

Yaponiyanın çoxtirajlı "Asahi shimbun", "Mainichi shimbun", "Nikkei" və "Sankei" kimi qəzetlərində, Kyodo news və JIJI PRESS kimi agentliklərin, jp.globalvoices.org və nippon.com kimi saytlarının yaydığı məlumatlarda, NHK, TBC, Fuji TV kimi telekanallarda təqdim edilən video materiallarda Azərbaycan Ordusunun döyüş təcrübəsinin öyrənilməsinə böyük diqqət yetirilməsinin zəruriliyi də vurğulanır. Hərbi ekspertlərin apardığı təhlillərdə bu təcrübənin öyrənilməsinin əhəmiyyəti xüsusi qeyd edilir.

Məhz bu təhlillərin və çağırışların nəticəsidir ki, Yaponiya hökuməti qarşıdakı beş il üçün nəzərdə tutan təhlükəsizlik strategiyasında "Bayraktar-TB2" və "Harop" kimi pilotsuz uçuş aparatlarının əldə edilməsini xüsusi vəzifə kimi qarşıya qoyub. Digər yüksək dəqiqlikli silahlarla yanaşı, dronların alınmasına böyük məbləğdə vəsaitin ayrılması planlaşdırılıb.

Göründüyü kimi, qalib Azərbaycan Ordusunun haqq döyüşlərində nümayiş etdirdiyi qəhrəmanlıq və döyüş təcrübəsi, müasir silahlardan bacarıqla istifadə etməsi həm bizim gələcək nəsillər, həm də dünyanın ən qabaqcıl dövlətləri üçün mühüm mənbəyə çevrilib.

# Ordumuzun Kəlbəcər istiqamətindəki mövqeyi atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, dekabrın 7-si saat 12:45 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Ağdaya yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeyi atəşə tutulub.

Ordumuzun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb.

# Müdafiə naziri: ““Qardaş yumruğu” təliminin regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunmasında böyük rolu var”





*Dekabrın 10-da müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə 2022-ci ilin yekunlarına dair Müdafiə Nazirliyinin Kollegiya iclası keçirilib.*

İclasda nazir müavinləri, qoşun növü komandanları, nazirliyin baş idarə, idarə, xidmət və müstəqil şöbə rəisləri, videobağlantı vasitəsilə azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi birlik və birləşmə komandirləri, həmçinin xüsusi təyinatlı təhsil müəssisələrinin rəisləri iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycan Respublikasının müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

İclasda müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Ali Baş Komandanın tapşırığına əsasən cari ildə ordu quruculuğu sahəsində aparılan islahatlar, qoşunların imkan və qabiliyyətlərinin artırılması, əməliyyat və döyüş hazırlığı, müasir silah və texnika ilə təchizatı, mühəndis və kəşfiyyat xidmətləri, peşəkar kadrlarla komplektləşdirilməsi, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və digər sahələrdə əldə edilən nailiyyətlər barədə məruzə ilə çıxış edib.

Azərbaycan Ordusunun 2022-ci il ərzində xidməti-döyüş fəaliyyətini təhlil edən general-polkovnik K.Vəliyev qeyd edib ki, müxtəlif növ hərbi təlimlər və döyüş hazırlığı məşğələlərinin keçirilməsi ilə qoşunların döyüş qabiliyyəti daha da artırılıb, şəxsi heyətin peşəkarlıq səviyyəsi yüksəlib.

Azad edilmiş ərazilərdə aparılan mühəndis tədbirləri nəticəsində yeni yolların çəkilməsi, ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Sonra müdafiə nazirinin müşaviri general-polkovnik Bəxtiyar Ersay çıxış edərək Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılması istiqamətində görülən işlərdən, aparılan islahatlar nəticəsində əldə edilən yeni nailiyyətlərdən danışıb.

Daha sonra müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi general-leytenant Nizam Osmanov Azərbaycan Ordusunda cari il ərzində qoşunların təminat və təchizatı sahəsində görülən işlər barədə məruzə edib.

General-leytenant N.Osmanov azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə aparılan quruculuq işləri, yeni istifadəyə verilən hərbi infrastruktur obyektləri, eləcə də şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən danışıb.

Qoşunların təyin olunmuş normalara uyğun vaxtında bütün növ maddi-texniki vəsaitlərlə təmin olunması, silah və hərbi texnikanın daim döyüş tətbiqinə hazır vəziyyətdə saxlanılması, şəxsi heyətin həyat və sağlamlığının qorunması, keyfiyyətli qidalanmasının təşkili ilə bağlı ətraflı məlumat verilib.

Bildirilib ki, yüksək dağlıq ərazilərdə yerləşən döyüş mövqelərində ərzaq, əşya, yanacaq, odun ehtiyatı normalara uyğun olaraq yaradılıb, şəxsi heyət isti geyimlə təmin edilib və ümumilikdə cari il ərzində qarşıya qoyulan məqsədlərə nail olunub.

General-leytenant N.Osmanov zirehli və avtomobil texnikasının döyüşə hazır vəziyyətdə saxlanılması istiqamətində müvafiq işlərin həyata keçirildiyini, birləşmə, hərbi hissələrin raket və döyüş sursatları ilə normalara əsasən tam təmin olunduğunu bildirib.

İclasda çıxış edən nazir müavinləri Quru Qoşunları, Əlahiddə Ümumqoşun Ordu, Hərbi Hava Qüvvələri və Hərbi Dəniz Qüvvələrinin inkişafı və təkmilləşdirilməsi məsələlərinə xüsusi diqqət yetirildiyini vurğulayıblar.

Sonra Kəlbəcər, Laçın və Daşkəsən rayonlarında, eləcə də Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdəki mövcud əməliyyat şəraiti təhlil edilib.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən keçirilən Azərbaycan-Türkiyə birgə təliminin nəticələri təhlil edilib. Bakı şəhəri, eləcə də Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərini əhatə edən "Qardaş yumruğu" təliminin xüsusi əhəmiyyətə malik olduğu və qarşıya qoyulan tapşırıqların uğurla yerinə yetirildiyi bildirilib.

Müşavirənin yekununda çıxış edən general-polkovnik Zakir Həsənov birgə təlimlərin regionda dayanıqlı sülhün və təhlükəsizliyin təmin olunmasına töhfə verdiyini qeyd edib.

Müdafiə naziri Silahlı Qüvvələrin Ali Baş Komandanının Azərbaycan Ordusunun xidməti-döyüş fəaliyyətini, eləcə də 2022-ci ildə Ermənistan silahlı qüvvələrinin törətdiyi təxribatlara cavab olaraq keçirilən əks-hücum əməliyyatlarını yüksək qiymətləndirdiyini bildirib.

Ali Baş Komandan tərəfindən 2023-cü il üzrə Azərbaycan Ordusu qarşısında qoyulan tapşırıqları kollegiya iştirakçılarına çatdıran nazir şəxsi heyətin peşəkarlığı və qoşunların döyüş hazırlığına xüsusi diqqət yetirilməsinin, döyüş hazırlığının daha da yüksəldilməsinin, o cümlədən təlimlərin və səhra məşğələlərinin intensivliyinin artırılmasının əhəmiyyətini vurğulayıb.

Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi ərazilərimizdəki qeyri-qanuni erməni silahlı dəstələrinin fəaliyyətinin daim müşahidə edilməsi, dayaq məntəqələrinin daha da gücləndirilməsinə dair müvafiq tapşırıqlar verilib.

Döyüş növbətçiliyi və gündəlik xidməti fəaliyyət zamanı yanğın və digər təhlükəsizlik qaydalarına ciddi riayət olunması, şəxsi heyətin ideoloji iş və mənəvi-psixoloji təminatının daha da gücləndirilməsinə xüsusi diqqət yetirilməsinin vacibliyi vurğulanıb.

Xidməti müşavirə zamanı azad edilmiş ərazilərdə görülən mühəndis tədbirlərinə dair konkret tapşırıqlar verilib.

Müdafiə naziri qış mövsümündə Azərbaycan Ordusunun, xüsusilə dağlıq ərazilərdə dislokasiya olunan bölmələrin təminat məsələlərinə ciddi nəzarət edilməsi, dayaq məntəqələri və döyüş mövqelərində maye, odun, kömür yanacağı da daxil olmaqla yaradılan bütün növ ehtiyatın ciddi nəzarətdə saxlanılmasına dair aidiyyəti üzrə vəzifəli şəxslərə göstərişlər verib.

Sonda şəxsi heyətin xidməti və sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması, eləcə də tibbi təminat məsələləri ilə bağlı müvafiq tapşırıqlar verilib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Nümunəvi xidmət*

## Düşmənə olan nifrət Zəfərə aparan yolun işığıdır

Gizir İlfaq Quluzadə hələ müddətli həqiqi hərbi xidmətdə olarkən hərbçi olmağın nə qədər çətin və şərəfli olduğunu dərk edib. Vətənin müdafiəsi naminə bu peşənin incəliklərini komandirlərindən daha dərindən mənimsəməyə çalışıb. İlfaq hərbçi olmaq qərarını da xidmət dövründə verib. Bunun üçün bilik və bacarıqlarını artırmağa çalışıb. Tərxis olunduqdan sonra valideynlərinə yenidən hərbi xidmətə qayıdacağını deyəndə onlar da İlfaqın istəyini müsbət qarşılayıblar.

Gizir İlfaq Cahangir oğlu Quluzadə 2019-cu ildə gizir hazırlığı kursunu müvəffəqiyyətlə bitirərək "N" hərbi hissəsinə təyinat alıb. Əslən Qazax rayonundan olan İlfaq xidmətə başladığı ilk gündən nümunəvi xidmət edəcəyini qarşısına məqsəd qoyub. Onun doğulub boya-başa çatdığı rayon Ermənistanla sərhəddə yerləşdiyi üçün həmişə atəş səsləri eşidib. Ermənilərin dədə-baba torpaqlarını işğal etməklə soydaşlarımızı ev-eşiyindən didərgin salması ona da təsir edib. Böyüdükcə bütün bunlar onda ermənilərə qarşı sonsuz nifrət hissi oyadıb.

Əslində İlfaqı hərbi peşəsinə gətirən də düşmənin davamlı olaraq işğalçılıq siyasəti yeritməsi olub. Erməniləri əsassız ərazi iddialarından əl çəkməyə sövq edən diplomatik addımlar nəticə vermədiyi halda ordumuzun gücü ilə



onları bu istəkdən çəkindirmək yolunun da qaçılmaz olduğunu yaxşı anlayıb.

Nəhayət, gizir İlfaq Quluzadənin illər uzunu gözlədiyi gün - 27 sentyabr 2020-ci il tarixi yetişib. Düşmən təmas xəttində yenidən atəşkəsi pozaraq genişmiqyaslı təxribat törətməyə başlayıb. Ordumuzun qətiyyəti və sayıqlığı sayəsində düşmən hücumunun qarşısı dərhal alınıb. Dövlətimizin başçısının əmri ilə ordumuz əks-hücuma keçib. Beləliklə, mətin döyüşçülərimiz 30 ilə yaxın ermənilərin işğal etdikləri əraziləri hissə-hissə azad etməyə başlayıblar.

Gizir İlfaq Quluzadə də döyüşün ilk günü xidmət etdiyi hərbi hissə ilə Suqovuşanın azad edilməsi uğrunda gedən döyüşlərə qatılıb. O da düşmənə qarşı mərdliklə vuruşub. İlfaqın düşmənə olan nifrəti, Zəfərə aparan yoluna işıq olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub.

Hazırda gizir İlfaq Quluzadə xidmətini davam etdirir. O, öz döyüş təcrübəsindən yararlanaraq tabeliyində olanlara nümunəvi xidmət etməyin vacibliyini aşılayır. Qətiyyətli Azərbaycan əsgərinin Zəfərə aparan yolundan danışır. Onları nümunəvi hərbi xidmətə sövq edir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir

Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu ordu quruculuğu siyasətinin bu gün dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirildiyinin hər addımda şahidi oluruq. Diqqət və qayğısını ordumuzdan əsirgəməyən dövlət başçısı tərəfindən ordu quruculuğuna lazımi qədər vəsait ayrılır. Yeni silah və texnikalar alınır, ordumuzun arsenalı gündən-günə müasirləşir və zənginləşir. Ordumuzun yüksək döyüş hazırlığı və güclü maddi-texniki bazası İkinci Qarabağ müharibəsində qazanılan şanlı qələbəmizi şərtləndirən əsas amillərdən oldu. Bütün dünya gördü ki, Azərbaycan Ordusunun arsenalı ən müasir atıcı silahlarla və döyüş texnikalarıyla zəngindir. Həmçinin istənilən döyüş tapşırığını müvəffəqiyyətlə yerinə yetirməyə qadir olan komandirləri, döyüş meydanında şücaət və igidlik göstərən əsgərləri var.

Ordu quruculuğunda atılan hər addım döyüş qabiliyyətinin artırılması istiqamətlənir. Son illərdə aparılan uğurlu islahatların nəticəsidir ki, bu gün Azərbaycan Ordusu regionun ən güclüsüdür. Keçirilən irimiqyaslı təlimlərdə hərbçilərimizin ən mürəkkəb tapşırıqları müvəffəqiyyətlə yerinə yetirməsi onların döyüş qabiliyyətinin və peşəkarlığının, yeni silah sistemlərindən və döyüş texnikasından istifadə etmək bacarıqlarının yüksək səviyyədə olduğunu göstərir.





Son illər ordu quruculuğunda xüsusi diqqət yetirilən məsələlərdən biri də müxtəlif qoşun növlərində ayrı-ayrılıqda və birgə hərbi təlimlərin müntəzəm keçirilməsidir. Ən mühüm hərbi əməliyyat tədbiri olan təlimlər döyüş hazırlığının artırılmasında və şəxsi heyətin döyüş vərdişlərinin möhkəmləndirilməsində əsas meyar rolunu oynayır.

Eyni zamanda, dost və tərəfdaş ölkələrlə davamlı olaraq əməkdaşlığa, sülhə, bölgədə sabitliyə və təhlükəsizliyə xidmət edən birgə təlimlər də keçirilir. Ordumuzun daha da müasirləşməsində, dinamikliyinin, çevikliyinin artırılmasında və NATO standartları səviyyəsinə gəlib çatmasında belə təlimlərin rolu danılmazdır.

Azərbaycan Ordusunun birgə hərbi təlimlərdə iştirak etdiyi ordular arasında ilk yerdə, təbii ki, qardaş Türkiyə Ordusudur. Türkiyə və Azərbaycan Müdafiə nazirliklərinin müxtəlif qoşun növlərinin, həmçinin xüsusi təyinatlılarının həm Azərbaycan, həm də Türkiyə ərazisində keçirilən çox vacib və əhəmiyyətli birgə təlimləri artıq bir ənənə halını alıb.

Bu günə kimi hər iki qardaş xalqın və dövlətin maraqlarına cavab verən, təkcə dövlətlərimizin deyil, eyni zamanda, regionun təhlükəsizliyini təmin etmək niyyəti daşıyan Azərbaycan və Türkiyənin müxtəlif qoşun növləri arasında "Mustafa Kamal Atatürk", "Anadolu Qartalı", "TurAz Qartalı", "Sarsılmaz Qardaşlıq" və digər uğurlu birgə hərbi təlimləri keçirilib. NATO-nun ən güclü ordularından olan Türkiyə ordusu ilə keçirilən birgə təlimlərdə qazanılan təcrübələr ordumuzun güc və qüdrətinin daha da artırılmasında əhəmiyyətli rol oynayır.

İkinci Qarabağ müharibəsindən sonra daha sıx keçirilən birgə təlimlər ötən əsrin əvvəlində Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri isə bizim kədərimizdir", əsrin sonlarında isə Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarlarını rəhbər tutan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə ölkələrimiz arasında qurduqları yüksək səviyyəli əməkdaşlığın bəhrəsidir. Həmçinin bu onun göstəricisidir ki, Azərbaycan və Türkiyə dost, qardaş və ən yaxın müttəfiq dövlətlərdir. Tarixi kökləri Azərbaycan Xalq Cümhuriyyəti dövründən götürən Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı Sovet İttifaqının dağılmasından sonra getdikcə daha da dərinləşmiş və halhazırda özünün ən yüksək inkişaf səviyyəsinə çatmışdır. Ölkələrimiz arasındakı qardaşlığın əbədi və sarsılmaz olduğunun növbəti təzahürü Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın 2021-ci il iyunun 15-də imzaladığı Şuşa Bəyannaməsi oldu. Bu bəyannamədə hər iki ölkənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı kimi milli maraqlara söykənən məsələlərdə ikitərəfli və çoxtərəfli formatlarda həmrəylik və qarşılıqlı yardım prinsiplərindən çıxış edilməsi xüsusi vurğulanır. Həmçinin Azərbaycanla Türkiyənin silahlı qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin davam etdiriləcəyi qeyd olunan bəyannamə ordularımızın birgə təlimlərini şərtləndirən hüquqi bazadır. Hər zaman bölgədə sülh və əməkdaşlıq təşəbbüskarları olan Azərbaycanla Türkiyə arasında keçirilən hərbi təlimlər bütün region üçün faydalı olur və bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət edir.

Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında bağlanmış hərbi sahədə əməkdaşlıq haqqında sazişə əsasən, iki ölkə arasında sarsılmaz qardaşlığın, birliyin növbəti təzahürü olan "Qardaş yumruğu" birgə hərbi təlimi baş tutdu. Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin müxtəlif qoşun növlərinin şəxsi heyəti, döyüş və xüsusi təyinatlı mühəndis-istehkam texnikası, həmçinin hərbi aviasiya vasitələrinin cəlb olunduğu təlim Bakı, Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərində keçirildi. Təlim ssenarisinə uyğun olaraq Azərbaycan Ordusunun Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələr, Mühəndis Qoşunları, Raket və Artilleriya Qoşunlarının bölmələri Türkiyə Silahlı Qüvvələrinin hərbçiləri ilə birgə müxtəlif təlim döyüş tapşırıqlarını yerinə yetirdilər. Müasir döyüş üsullarından istifadə etməklə artilleriya, aviasiya və digər qoşun növlərinin hərbi əməliyyatlarda tətbiqi, onların qarşılıqlı əlaqədə fəaliyyətinin təşkili, çaylar üzərindən keçid açmaq məqsədilə panton körpülərin salınması, şərti düşmənin dərinliyinə desant endirilməsi üzrə müxtəlif tapşırıqlar müvəffəqiyyətlə icra edildi. Birgə təlimin gecə və məhdudgörmə şəraitində müxtəlif tapşırıqların icra edilməsi mərhələsində hər iki qardaş ölkənin hərbi qulluqçuları şərti düşmənlə bilavasitə təmas vəziyyətində onun texnikasının və canlı qüvvəsinin məhv edilməsi tapşırıqlarını yerinə yetirdilər.

"Qardaş yumruğu" birgə təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"nü Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov, Türkiyənin milli müdafiə naziri Hulusi Akar və digər rəsmilər izlədilər. Eyni zamanda, xüsusi quraşdırılmış monitorlar vasitəsilə Astara, Cəbrayıl və İmişli rayonlarının ərazilərində keçirilən təlimdə icra olunan tapşırıqları da izləyən müdafiə nazirlərinə plana uyğun olaraq bütün təlim döyüş tapşırıqlarının yüksək peşəkarlıqla yerinə yetirildiyi məruzə olundu. Həmçinin general-polkovnik Zakir Həsənov və cənab Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti, videobağlantı vasitəsilə qoşulan komandir heyətinin də iştirakı ilə bütün istiqamətlər üzrə icra olunan tapşırıqları birgə təhlil edərək, "Qardaş yumruğu" təlimini yüksək qiymətləndirdilər.

Təlimdə fərqlənən bir qrup azərbaycanlı və türkiyəli hərbi qulluqçuları mükafatlandıran müdafiə nazirlərinin səsləndirdiyi fikirlər iki qardaş ölkə arasında hərbi əməkdaşlığın artan dinamikasından xəbər verdi. Milli müdafiə gücünün və iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin daha da artırılmasına istiqamətlənən sarsılmaz müttəfiqliyin davamlı olacağına bir daha əminlik yaratdı.



Çıxış edən Türkiyənin milli müdafiə naziri Hulusi Akar Baş Qərargah rəisi və digər qoşun növləri komandanları ilə birgə təlimin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə iştirak etməkdən məmnunluğunu bildirərək dedi: "Dünyada təhdid və təhlükələrin artdığı bir zamanda ölkələrimizin və millətimizin təhlükəsizliyini yalnız güclü orduya sahib olmaqla təmin etmək mümkündür. Birgə təlimlər də qarşılıqlı təcrübə mübadiləsi və peşəkarlığın artırılmasında mühüm əhəmiyyətə malikdir. Türkiyə hər zaman Azərbaycanın yanında, istənilən təhdid və təxribatlara qarşı tək yumruq kimi birləşməyə hazırdır. Dostumuzu birlikdə dost, düşmənimizi də birlikdə düşmən görürük".

Türkiyə hərbi qulluqçularını ölkəmizdə görməkdən məmnun olduğunu bildirən general-polkovnik Zakir Həsənov dedi: "44 günlük müharibədən sonra Prezident, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunda Türkiyə Silahlı Qüvvələrinə uyğun islahatlar həyata keçirilir. Biz şanslıyıq. Çünki Türkiyə Silahlı Qüvvələri dünyanın ən aparıcı ordularından biridir. Bir millət, iki dövlət olaraq biz bu şansdan səmərəli istifadə edirik. Türkiyə-Azərbaycan qardaşlığı əbədidir. Yaşasın, Türkiyə-Azərbaycan qardaşlığı!"

"Qardaş yumruğu" təliminin "Yüksək Səviyyəli Müşahidəçi Günü"ndə plana uyğun olaraq bütün təlim döyüş tapşırıqlarını yüksək peşəkarlıqla yerinə yetirən şəxsi heyəti telefon zəngi ilə təbrik edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan bu təlimin Türkiyə-Azərbaycan birliyinin növbəti təzahürü olduğunu, bu sarsılmaz birliyi heç kimin ayıra bilməyəcəyini, hər sahədə olan sıx əməkdaşlığın gələcəkdə də uğurla davam etdiriləcəyini vurğuladılar.

Bu gün bütün dünya bir daha görür ki, Azərbaycan ilə Türkiyə arasındakı əlaqələrin böyük tarixi var. Tarix boyu iki qardaş ölkə ən mürəkkəb dövrlərində bir-birinə dəstək olublar. Türk tarixinin şərəf nöqtəsi Çanaqqala zəfərində azərbaycanlıların türk qardaşlarımızla çiyin-çiyinə döyüşlərə atılması, üç minə yaxın şəhid verməsi eləcə də ikinci Qarabağ müharibəsində Türkiyənin Azərbaycana siyasi-mənəvi dəstək verərək, açıq və birmənalı bəyanatlar səsləndirərək bu müharibədə Azərbaycanın tək olmadığını, Türkiyənin hər zaman dövlətimizin və xalqımızın yanında olduğunu bildirməsi bu qardaşlığın tarixi nişanələrindəndir. Bu faktlar bir daha sübut edir ki, cənab Ali Baş Komandanın da dediyi kimi Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Ulu Öndər Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq

*Dekabrın 8-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda xalqımızın ümummilli lideri, nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin vəfatının 19-cu ildönümü ilə bağlı anım mərasimi keçirilib.*





Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, dünyaşöhrətli siyasətçinin əziz və unudulmaz xatirəsi bir dəqiqəlik sükutla anılıb, böyük şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən öncə mərasim iştirakçıları ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş bütün şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Baş prokurorun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev mərasimdə çıxış edərək qəlbi daim Vətən eşqi ilə döyünən, bütün varlığı ilə millətinə bağlı olan, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxaran, müstəqilliyə gedən yolumuzu və gələcəyimizi işıqlandıran dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən geniş danışıb.

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən bəhs edən ədliyyə general-leytenantı Xanlar Vəliyev bildirib ki, şərəfli ömrünü ölkəmizin hərtərəfli inkişafına və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanıb. Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində respublikamıza birinci rəhbərliyi dövründə işlənib hazırlanıb. Onun istefa verdiyi vaxtdan, yəni 1987-ci ilin oktyabrından 1993-cü ilin iyun ayında növbəti dəfə hakimiyyətə qayıdışınadək olan dövrdə ölkədə yaranmış özbaşınalığın, anarxiyanın, xaosun, hakimiyyət nümayəndələrinin xalq və dövlətin deyil, ayrı-ayrı şəxslərin maraqlarına xidmət etməsinin iqtisadiyyatımızın tənəzzülə uğraması, ictimai-siyasi sabitliyin pozulması, eləcə də tarixi torpaqlarımızın işğal olunması ilə nəticələndiyini, eyni zamanda, vətəndaş müharibəsi və müstəqilliyimizin itirilməsi təhlükəsini yaratdığını, yalnız dahi şəxsiyyət Heydər Əliyevin xalqın israrlı tələbi ilə qayıdışından sonra hər şeyin müsbətə doğru dəyişdiyini vurğulayan Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən bu böyük qayıdışdan sonra vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alınıb, cinayətkar dəstələr zərərsizləşdirilib, separatçı meyillərə son qoyulub. Ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görülüb, bununla da Azərbaycan tərəqqi yoluna qədəm qoyub. "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 29 sentyabr tarixli Sərəncamından söz açan ədliyyə general-leytenantı Xanlar Vəliyev həmin Sərəncamın və onun əsasında hazırlanan tədbirlər planlarının müddəalarının aidiyyəti qurumlar, o cümlədən Hərbi Prokurorluq orqanları tərəfindən böyük qürur və fərəh hissləri ilə uğurla icra olunacağına əminliyini ifadə edib.

Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə son 19 il ərzində ölkəmizdə müstəsna əhəmiyyətli nəhəng işlər görülüb, çoxşaxəli köklü islahatlar həyata keçirilib, bütün istiqamətlərdə misli görünməmiş uğurlar əldə olunub. Prezident İlham Əliyevin dərin zəkası, hərtərəfli bilikləri, mükəmməl rəhbərliyi, sarsılmaz qətiyyəti və gərgin əməyi sayəsində, eləcə də hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində iqtisadiyyatımız daha da güclənib, ölkəmiz hərtərəfli inkişaf edib, qüdrətli Silahlı Qüvvələrimiz formalaşıb. Eyni zamanda, dövlətimizin beynəlxalq nüfuzu daha da artmaqla, dünya ölkələri sırasında mövqeyi hərtərəfli möhkəmlənib. Bütün bunlar isə Vətən müharibəsindəki möhtəşəm Qələbəmizi də şərtləndirib, nəticədə hərbi və siyasi-diplomatik yolla 30 ilə yaxın müddətdə düşmən tapdağında olan dədə-baba torpaqlarımız işğaldan azad edilib.

Millətinə xidməti həyat amalına çevirmiş İlham Əliyevin verdiyi bütün vədləri əməlləri ilə doğruldaraq, hər bir azərbaycanlının Prezidenti olduğunu sübuta yetirməklə xalqın sonsuz məhəbbətini qazandığını vurğulayan ədliyyə general-leytenantı Xanlar Vəliyev dövlətimizin başçısının növbəti dəfə də vədinə əməl etməsindən, işğal altındakı tarixi ərazilərimizin azad olunmasından, bu şərəfli missiyanın həyata keçirilməsi zamanı müşahidə olunan bənzərsiz lider-xalq-ordu vəhdətindən, Ali Baş Komandanın rəhbərliyi ilə hərbçilərimizin şanlı tarix yazmaqlarından ətraflı danışıb.



Hərbi prokuror Xanlar Vəliyev qeyd edib ki, Prezident İlham Əliyevin mükəmməl siyasi strategiyası və yorulmaz fəaliyyəti ilə xalqın müdrikliyinin və əzmkarlığının vəhdəti sayəsində dünyada baş verən neqativ proseslərə, o cümlədən yer kürəsini bürüyən koronavirus (COVID-19) pandemiyasına və 44 günlük döyüş əməliyyatlarına rəğmən, dövlətimizin eyni templə hərtərəfli qüdrətlənməsi və əhalinin rifahının daha da yaxşılaşdırılması prosesinin davamlılığı bu gün də uğurla təmin edilir.

Ədliyyə general-leytenantı Xanlar Vəliyev vurğulayıb ki, əldə olunan uğurlarda və dövlətimizin qüdrətlənməsində, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində zəngin biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan, sadəliyi, səmimiliyi və insanpərvərliyi ilə xalq məhəbbəti qazanmış Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Mehriban xanım Əliyevanın respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafındakı xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və beynəlxalq səviyyədə geniş təbliği istiqamətində gördüyü nəhəng işlər dövlətimizin daha da güclənməsinə və xalqın rifahının yüksəlməsinə mühüm töhfələr verməkdədir.

Prezident İlham Əliyevə xalqda olan sonsuz inamdan irəli gələn bənzərsiz sevgidən bəhs etməklə çıxışını yekunlaşdıran Hərbi prokuror Xanlar Vəliyev bildirib ki, Hərbi Prokurorluğun kollektivi millətimizin və dövlətimizin maraqlarına xidmət edən Ulu Öndər siyasətinin Prezidentimiz tərəfindən uğurla davam etdirilməsində, onun rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edərək dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasında, qanunun aliliyinin təmin edilməsində, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsində, Silahlı Qüvvələrdə hərbi intizamın, qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsində üzərinə düşən vəzifələri layiqincə icra etməklə Azərbaycanın firavan gələcəyinin təminatı olan müdrik siyasəti daim dəstəkləyəcək.

Çıxışının sonunda ədliyyə general-leytenantı Xanlar Vəliyev qeyd edib ki, dəyərli və mənalı ömrünü millətinə həsr edərək Vətən qarşısında misilsiz xidmətlər göstərməklə Azərbaycan xalqının Ümummilli Lideri adını qazanmış dünya siyasətinin parlaq siması Ulu Öndər Heydər Əliyev tarixdə və azərbaycanlıların qəlbində əbədi olaraq qalacaq, böyük tarixi şəxsiyyətin əziz və unudulmaz xatirəsi hər zaman dərin ehtiramla anılacaq.

# Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilib






*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Türkiyənin Ankara şəhərində 14-cü Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası keçirilib.*

Yüksək Səviyyəli Hərbi Dialoq İclasında iştirak etmək məqsədilə Türkiyəyə səfər edən Azərbaycan nümayəndə heyəti Ankara şəhərində Heydər Əliyev Parkını ziyarət edib.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin parkdakı abidəsi önünə əklil qoyularaq hörmət və ehtiram nümayiş etdirilib.

Sonra Azərbaycan nümayəndə heyəti Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün dəfn olunduğu məqbərəni - Anıtqəbiri ziyarət edib, məzarı önünə əklil qoyub, xatirəsini ehtiramla yad edib.

Nümayəndə heyətinin rəhbəri Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin rektoru general-leytenant Heydər Piriyev "Xatirə kitabı"na ürək sözlərini yazıb.

Azərbaycan nümayəndə heyətini ölkəmizin Türkiyədəki səfirliyinin və hərbi attaşelik aparatının əməkdaşları müşayiət ediblər.





Daha sonra general-leytenant H.Piriyev Türkiyə Respublikasının Baş Qərargah rəisi ordu generalı Yaşar Güler və Baş Qərargahın ikinci rəisi ordu generalı Selçuk Bayraktaroğlu ilə görüşüb.

Görüşlər zamanı ölkələrimiz arasında hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran mövzulara dair ətraflı fikir mübadiləsi aparılıb.

* * *

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Milli Müdafiə Universitetinin rektoru general-leytenant Heydər Piriyev və Türkiyə Respublikasının Baş Qərargahının ikinci rəisi ordu generalı Selçuk Bayraktaroğlunun rəhbərliyi ilə Türkiyənin Ankara şəhərində keçirilən 14-cü Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Hərbi Dialoq İclası başa çatıb.

İclasda Azərbaycan ilə Türkiyə arasında hərbi, hərbi-texniki, hərbi tibb, hərbi təhsil və digər sahələrdə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri nəzərdən keçirilib, əsas fəaliyyət istiqamətləri müzakirə edilib.

Görüşün sonunda iclasın yekun protokolu imzalandıqdan sonra Azərbaycan nümayəndə heyəti Türkiyə Silahlı Qüvvələrinin hərbi təhsil müəssisəsini ziyarət edib.



# Moskvada ŞƏT və MDB müdafiə nazirlərinin görüşü keçirilib

*Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, dekabrın 9-da Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Şanxay Əməkdaşlıq Təşkilatına (ŞƏT) və Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv ölkələrin müdafiə nazirlərinin görüşü keçirilib.*



Azərbaycan Respublikasını bu iclasda Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov təmsil edib.

General-mayor H.Mahmudov iclasda çıxış edərək Ermənistanın Azərbaycana qarşı 30 il ərzində törətdiyi cinayətlər barədə ətraflı məlumat verib.

İdarə rəisi vurğulayıb ki, işğaldan azad edilmiş ərazilərdə təhlükəsizliyin təmin edilməsi və orada bərpa işlərinin aparılması Azərbaycan hökumətinin qarşısında duran əsas vəzifələrdəndir.

Qeyd olunub ki, işğaldan azad edilmiş ərazilərimizdə erməni hərbi birləşmələri tərəfindən basdırılmış minalar səbəbindən bərpa işləri ləngiyir.

Münaqişə bitəndən indiyədək 268 azərbaycanlının bu minalardan həlak olduğu və yaralandığı diqqətə çatdırılıb.

# NATO-nun "Müdafiə təhsilinin genişlənməsi proqramı" çərçivəsində treninq keçirilir



Milli Müdafiə Universitetində NATO-nun "Müdafiə təhsilinin genişlənməsi proqramı" çərçivəsində "Distant təhsil üzrə sistem administratorlarının hazırlanması" üzrə treninq keçirilir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, distant təhsil üzrə NATO-nun aparıcı mütəxəssisləri tərəfindən Milli Müdafiə Universitetinin aidiyyəti nümayəndələrinə veb əsaslı təlim idarəetmə sistemi (ILIAS) platforması, platformanın imkanları və funksiyaları, multimedianın yaradılması və digər mövzularda məşğələlər keçirilir.

Dekabrın 9-dək davam edəcək treninqin sonunda iştirakçılara sertifikatlar təqdim olunacaq.

# “Ən yaxşı Əməliyyat (komando) bölüyü” yarışı keçirilib




*<u>Təsdiq olunmuş 2022-ci tədris ili üçün hazırlıq planına əsasən Quru Qoşunlarında "Ən yaxşı Əməliyyat (komando) bölüyü" adı uğrunda yarış keçirilib.</u>*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, yarışda iştirak edən komandolardan ardıcıl olaraq sıra baxışı, fiziki hazırlıq, atəş hazırlığı və taktiki hazırlıq üzrə məqbullar qəbul edilib.

Hərbi qulluqçuların bilik və bacarıqlarının inkişaf etdirilməsi məqsədilə keçirilən yarışın mərhələləri üzrə verilən tapşırıqlar komandolar tərəfindən müvəffəqiyyətlə icra edilib.





*Məişət*

# “Yaradılan şəraitdən hamı razıdı”

Rəşadətli ordumuzun güc və qüdrətindən danışarkən təminat amilini xüsusi qeyd etmək lazımdır. Bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ordumuza göstərdiyi diqqət və qayğının nəticəsində bütün bölmələrimizdə gənclərin uğurlu xidmət etməsi üçün yüksək şərait yaradılır. Yeni yataqxanalar, yeməkxanalar və digər infrastrukturlar tikilərək şəxsi heyətin istifadəsinə verilir. Bununla yanaşı əsgərlər istənilən növ təminatla ən üst səviyyədə təmin olunurlar. Yaradılan belə məişət şəraiti də zəmin yaradır ki, gənclər yüksək döyüş ruhunda xidmət etsin, keçirilən dərsləri yaxşı mənimsəsin. Ordu quruculuğunda bütün fəaliyyətlər döyüş hazırlığının artırılmasına hesablanır. Məişət şəraiti və sosial təminatları yaxşı olan əsgər də sağlam mənəvi-psixoloji durumda olur ki, bu da döyüş ruhunun möhkəm olmasını şərtləndirir. Yüksək döyüş ruhunda xidmət edən əsgər də hərbi biliklərə, döyüş hazırlığının incəliklərinə yiyələnmək üçün səylə çalışır, vəzifə borclarının öhdəsindən bacarıqla gəlir.



Azərbaycan Ordusunun bütün bölmələrində olduğu kimi Raket və Artilleriya Qoşunlarının "N" hərbi hissəsində də əsgərlərin ürəkaçan şəraitdə xidmət etdiyini gördük. Müasir avadanlıqlarla təchiz olunan əsgər yataqxanasında olduq. Bölüyün baş çavuşu gizir Rövşən Əsgərov dedi ki, məişət şəraiti əsgərləri daha da nümunəvi xidmət etməyə ruhlandırır, dövlətimizin orduya olan yüksək qayğısı onlara xoş ovqat və döyüş ruhu aşılayır. "Yaradılan şəraitlə yanaşı hərbi hissənin rəhbərliyi də əsgərlərin qayğıları ilə şəxsən maraqlanır, onlarla mütəmadi fərdi söhbətlər edirlər. Heç nədən korluq çəkməyən və yüksək əhval-ruhiyyədə xidmət edən əsgərlərimiz də verilən tapşırıqları məsuliyyət və bacarıqla yerinə yetirirlər", - dedi baş çavuş R.Əsgərov.

Rövşənlə birlikdə əsgər yataqxanasına daxil olduq. Yataqxanada yaradılan şəraitin və səliqə-sahmanın əyani şahidi oldum. Burada ikimərtəbəli müasir çarpayılar, qalın yun ədyallar, təmiz döşək ağları, əl-üz dəsmalları və digər ləvazimatlar gözə dəyirdi. Hər əsgər üçün fərdi ayrılmış dolabda isə hər cür hamam ləvazimatının və gigiyenik vasitələrin olduğunu gördüm. Soyuq qış fəslinin başlamasına baxamayaraq, yataqxana da isti idi. Çünki bina müasir tipli istilik sistemi ilə təmin olunub. Belə müasir şərait və yüksək təminat ordu quruculuğuna göstərilən diqqətin, şəxsi heyətin sosial şəraitinin yaxşılaşdırılması istiqamətində aparılan məqsədyönlü islahatların bir daha göstəricisi oldu.

Yataqxanada olan əsgərlər Elvin Əlizadə və Zahir Zərbəliyevin də fikirlərini qeydə aldım. Elvin yaradılan şəraitdən razılığını bildirdi. "Hər birimiz üçün böyük fərəhdir ki, əsgərik. Vətənə övladlıq borcumuzu yerinə yetiririk. Qalib və rəşadətli ordunun əsgəri olmaq isə ikiqat qürurludur.



Hər birimiz komandirlərin diqqəti və qayğısı ilə əhatə olunmuşuq. Gördüyünüz kimi heç nədən korluq çəkmirik. Əminliklə deyə bilərəm ki, yaradılan şəraitdən hamı razıdı", - dedi əsgər E.Əlizadə.

Silahdaşının dediklərini təsdiqləyən Zahir bildirdi ki, hər birimiz bu diqqətin qarşılığında nümunəvi xidmət edib, bacarıqlı əsgər olmağa səy göstəririk. "Bu qayğı dövlətimiz tərəfindən bizə bəslənən böyük etimaddır. Bizim də amalımız Vətənimizin keşiyində inamla dayanıb bu etimadı doğrultmaqdır. Məişət şəraitimizin yaxşı olması da amalımıza çatmaq üçün zəmin yaradır. Keçirilən dərslərdə, məşğələlərdə həvəslə iştirak edir, hərbi bilikləri, döyüş hazırlığını mükəmməl öyrənməyə can atırıq. Azərbaycan əsgərinə göstərilən yüksək diqqət və qayğıya görə bölməmizin bütün əsgərləri adından Ali Baş Komandanımıza təşəkkürümüzü bildiririk", - deyir əsgər Zahir Zərbəliyev.

Bir daha şahid olduq ki, ölkəmizin güclü iqtisadiyyatı ordu quruculuğunda da öz sözünü deyir. Vətənimizin keşiyində dayanan gənclərimiz üçün bölmələrdə ən müasir səviyyədə sosial-məişət şəraiti yaradılır. Milli-mənəvi dəyərlərimizə bağlı olan vətənpərvər gənclərimiz də çətinlik çəkmədən Vətənin keşiyində qətiyyətlə dayanırlar.

**Baş leytenant Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# Xəbərlər: hadisələr, faktlar

## F-16 qırıcıları ilə bağlı Türkiyəyə tətbiq edilən qadağa aradan qaldırılıb



Türkiyənin ABŞ-dan F-16 qırıcı təyyarələrini satın almasına tətbiq edilən məhdudiyyətlər aradan qaldırılıb.

Anadolu Agentliyi xəbər verir ki, ABŞ Konqresinin iki palatasının da yer aldığı komitə tərəfindən hazırlanan 857 milyard dollarlıq müdafiə büdcəsinin son versiyası təqdim olunub. Sənədin bu versiyasında ABŞ-ın Türkiyəyə F-16 qırıcılarının hazırlanması və modernləşdirilməsi üçün qadağaların qoyulmasına dair maddələr yoxdur. Türkiyə F-16 qırıcıları ilə bağlı təzyiqləri məharətlə dəf edib.

Türkiyə diplomatiyasının qalibiyyəti olan bu vəziyyət Türkiyə Hərbi Hava qüvvələrinin gücünü artıracaq.

ABŞ-dan 40 yeni F-16 qırıcısı almaq istəyində olan Türkiyə, eyni zamanda, arsenalındakı 80 döyüş təyyarəsinin modernləşdirilməsi üçün hissələr tələb edir.

## Almaniya 10 milyard avroya 35 ədəd F-35 qırıcı təyyarəsi alacaq



Almaniya ABŞ istehsalı olan 35 ədəd beşinci nəsil F-35 qırıcılarının alınması üçün 10 milyard avro (10,5 milyard dollar) ayıracaq.

Bu barədə Bloomberg agentliyi AFR hökumətinin müvafiq sənədinə istinadla məlumat yayıb. Sənədə əsasən, təyyarələrin tədarükü 2026-2029-cu illər üçün nəzərdə tutulur. Sövdələşmə Almaniya Silahlı Qüvvələrinin gücləndirilməsi üçün 100 milyard avronun ayrıldığı xüsusi fond hesabına həyata keçiriləcək. Berlin, eyni zamanda, "hava-yer" raketləri alacaq və yerüstü hərbi infrastrukturu təkmilləşdirəcək.

Kansler Olaf Şolts noyabrın 30-da Berlin Təhlükəsizlik Konfransında çıxışı zamanı vurğulayıb ki, Almaniyanın atom bombası yoxdur, lakin F-35 qırıcıları Amerikaya məxsus nüvə başlıqlarını daşıya bilər. İndiyədək bu funksiyanı "Tornado" kəşfiyyat təyyarələri yerinə yetirirdi. Onların da istismar müddətinin 2025-ci ildə başa çatacağı gözlənilir. Hələ 2019-cu ildə Berlinin bu təyyarələri F-35 qırıcıları ilə əvəzləmək niyyətində olduğu barədə məlumatlar yayılmışdı.

## ABŞ Cənubi Koreyaya “Chinook” helikopterləri sata bilər



ABŞ Dövlət Departamenti Cənubi Koreyaya "CH-47F Chinook" helikopterlərinin və müxtəlif avadanlığın ümumilikdə 1,5 milyard dollara mümkün satışını təsdiqləyib.

Bu barədə ABŞ Müdafiə Nazirliyinin Təhlükəsizlik Sahəsində Əməkdaşlıq Agentliyi məlumat yayıb. Agentlik hökumətlərarası müqavilələr üzrə hərbi texnika və silahların tədarükünə cavabdehdir.

Məlumatda qeyd olunur ki, Seul daha əvvəl bu helikopterlərdən 18-ni, onlar üçün ehtiyat hissə, silah və müxtəlif sistemləri almaq istədiyini bildirib. Təklif edilən satış xarici siyasət və milli təhlükəsizlik sahələrində ABŞ-ın məqsədlərinə uyğun olacaq. Çünki bu, Asiya-Sakit okean regionunda siyasi sabitliyə və iqtisadi inkişafa təsir göstərməklə mühüm rol oynayan əsas müttəfiqin təhlükəsizliyini gücləndirməyə kömək edəcək.

Pentaqonda hesab edirlər ki, Seul bu helikopterlərdən birgə əməliyyatların keçirilməsində istifadə edə bilər.

ABŞ administrasiyası artıq bu qərarla bağlı Konqresə məlumat verib. Qanunverici orqanın potensial sövdələşməni nəzərdən keçirmək və ya onu bloklamaq üçün 30 günü var.

**AZƏRTAC-ın materialları əsasında**

# Birliyə sədaqətim - Azərbaycan, Türkiyə!



Yüz ildən çoxdu ki, Türkiyə ağrı-acılarını, sevincini Azərbaycanla birlikdə yaşayır, Azərbaycan ağrı-acılarını, sevincini Türkiyə ilə birlikdə yaşayır. Türkiyənin istiqlal savaşında da belə olub, ötən əsrin əvvəllərində də, İkinci Qarabağ müharibəsində də belə oldu. Müharibə ərəfəsində Türkiyənin milli müdafiə naziri Hulusi Akar demişdi ki, Dağlıq Qarabağı işğal edən Ermənistana qarşı Azərbaycanın yanındayıq. Azərbaycan tək deyil.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dediyi kimi, Türkiyə-Azərbaycan dostluğu sarsılmazdır, əbədidir.

İkinci Qarabağ müharibəsindən sonra Bakıda Azadlıq meydanında keçirilən paradda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan demişdi: "Azərbaycan torpaqları illərdir həsrət qaldığı Tərtər çayının sularına qovuşmuşdur. Şuşanın dağlarının başındakı duman artıq dərdli deyil. Girov qalmış xarı bülbül artıq azaddır və daha gözəl açacaqdır. Köndələnçay artıq daha coşqun axacaq. Araz nəğməsini daha güclü oxuyacaq. Qarabağ şikəstəsini oxuyan nəfəslər daha yüksək, daha güclü olacaqdır"...

Türkiyə ilə Azərbaycan arasında əlaqələr iki böyük tarixi şəxsiyyətin - Mustafa Kamal Paşa Atatürkün və Heydər Əliyevin dühasının işığında bütün istiqamətlərdə uğurla davam etdirilməkdədir. Ölkəmizdə keçirilən Azərbaycan-Türkiyə birgə hərbi "Qardaş yumruğu" təlimləri də bu baxımdan tarixləşdi...

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ehtiramla qeyd edib ki, Türkiyə Silahlı Qüvvələri dünyanın ən aparıcı ordularından biridir. Belə bir ordu ilə birgə təlimlər qarşılıqlı etimada əsaslanır...

*Aydınlığa çıxacaq gecələrin qarası,*
*Sağalacaq torpağın qaysaqlayan yarası...*
*Bu birlik görk olacaq Doğu-Batı arası,*
*Başəri məhəbbətim, Azərbaycan, Türkiyə!*
*Mənim iki dövlətim, Azərbaycan, Türkiyə!*

*Qardaşlığın yumruğu daşı-daşa çalar da,*
*Cızığından çıxanı nizamından salar da...*
*Bir ülgüclük yaranın qisasını alar da,*
*Dünyəvi heysiyyətim, Azərbaycan, Türkiyə!*
*Mənim iki dövlətim, Azərbaycan, Türkiyə!*

*Xeyir yaranışından "bir əl, bir ətək" deyil,*
*Ruhun birlik qılıncı itidi, kövrək deyil.*
*Hulusi Akar dedi: Azərbaycan tək deyil,*
*Turandı nəhayətim, Azərbaycan, Türkiyə!*
*Mənim iki dövlətim, Azərbaycan, Türkiyə!*

*Göyləri salamladı məhəbbət rəngli səhər,*
*Əsgər əlini sıxdı burda hər kənd, hər şəhər...*
*İşğalın son nəfəsi oldu möhtəşəm Zəfər,*
*Birliyə sədaqətim - Azərbaycan, Türkiyə!*
*Mənim iki dövlətim, Azərbaycan, Türkiyə!*

*Zirvə necə zirvədi, dağa dönən qar desin,*
*Göydən gələn qüdrətin ixtiyarı var, desin,*
*"Bu, ruhun Zəfəridi!" - desin, Bayraktar desin,*
*Yenilməz inayətim, Azərbaycan, Türkiyə!*
*Mənim iki dövlətim, Azərbaycan, Türkiyə!*

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Hərbi vətənpərvərlik mahnıları və marşları

*Məmməd ARAZ*

İSTİQLALA GEDƏN YOLA

Mərd insanlar sıralansın,
Gözlərində alov yansın,
Günəş çıxsın, ulduz yağsın,
İstiqlala gedən yola.

Gözün aydın, azad insan,
Sən Hüriyyət yolundasan,
Mən inandım, sən də inan,
İstiqlala gedən yola.

Bu yol dönməz haqqın yolu,
Əzmini qoş, Vətən oğlu,
Əhdini yaz, Vətən qızı,
İstiqlala gedən yola.

*Zülfüqar RÜFƏTOĞLU*

UCAL, BAYRAĞIM, UCAL!

Ey müqəddəs bayrağım,
Gəldi yenə növrağın.
Əsən rüzgardan güc al!
Ucal, bayrağım, ucal!

Parlar ulduzlu hilal,
Zəfər yollarımıza,
Qüvvət qollarımıza,
Ucal, bayrağım, ucal!

Göyün, dənizin rəngi,
Ürəyimizin rəngi,
Vətənimizin rəngi,
Ucal, bayrağım, ucal!

"Bir dəfə qalxan bayraq
Bir daha enməz" - derlər,
Eşitsin göylər, yerlər:
Ucal, bayrağım, ucal!

*Bəhlul ORUCOĞLU*

BAKI-ANKARA
(qardaşlıq marşı)

Doğma Bakı-Ankara,
Olub alınmaz qala.
Ana torpaq var olsun,
Düşmənlərə ar olsun.

Yada sipər olmuşuq,
Dosta sirdaş olmuşuq.
Haydı, gedin irəli!
Türkün dönməz əsgəri,
Azərbaycan əsgəri.

Keşməkeşli yolun var,
Bükülməyən qolun var.
Hədəfi düz vurursan,
Savaşa sən hazırsan.

Yada sipər olmuşuq,
Dosta sirdaş olmuşuq.
Haydı, gedin irəli!
Türkün dönməz əsgəri,
Azərbaycan əsgəri.

Ədalətin carçısı,
Türkün mərd jandarması.
Bizim daxili qoşun,
Qəhrəmandır hamısı.

Yada sipər olmuşuq,
Dosta sirdaş olmuşuq.
Haydı, gedin irəli!
Türkün dönməz əsgəri,
Azərbaycan əsgəri.

*Şahin MUSAOĞLU*

İSTİQLAL MARŞI

Dalğalansın üfüqlərdə
Aylı, ulduzlu bayraq.
Alovlansın ürəklərdə
Azadlıqdan bir ocaq.

Qalx, bir də qalx, Azərbaycan!
Atəşinlə qəmi yandır.
Nifrətini bayraq edib
Başın üstə dalğalandır.

Haydı, haydı yola çıxaq
Bu yol Millət yoludur.
Babalardan miras qalıb
Bu yol qeyrət yoludur.

Ağ işıq var başın üstə
Min illərdi yol gəlir.
Yurd torpağı yad ayaqda
Bizdən imdad diləyir.

Kömək elə, ulu Tanrım
Yatan ruhlar oyansın.
Haqq uğrunda savaşdayıq
Zəfər himni çalınsın.

*Alimşah TEYMURLU*

VƏTƏNİMİN ƏSGƏRİ

Namus mərdi çağırır,
Vətən oğlu, oyan sən.
Şəhid ruhu hıçqırır:
Torpaq - deyib dayan sən,
Vətənimin əsgəri!

Sıxılmış yumruqların,
Başa enən gürz olsun.
Düşmənlərin canına,
Əsim-əsim lərz salsın,
Vətənimin əsgəri

Ana, sil gözün yaşını,
Uca tut məğrur başın,
Düyülməsin qoy qaşın,
Keşiyində yurddaşın -
Vətənimin əsgəri!

*Vahid ƏZİZ*

AZƏRBAYCAN

Yenə səni yada saldım,
Xəyalımda fikrə daldım.
Gül ətrini səndən aldım,
Azərbaycan, Azərbaycan.

Mən övladın, sən də anam,
Damar olsan, qızıl qanam.
Ürəyində diri canam,
Azərbaycan, Azərbaycan.

Ana yurdum, ey Vətənim,
Əzəl gündən öz məskənim.
Mən səninəm, sən də mənim,
Azərbaycan, Azərbaycan.

Bülbüllərin çəmənisən,
Koroğlunun Vətənisən.
Qoç Nəbinin məskənisən,
Azərbaycan, Azərbaycan.

Mən övladın, sən də anam,
Damar olsan, qızıl qanam.
Ürəyində diri canam,
Azərbaycan, Azərbaycan.

# İdman

## Şahmatçımız İspaniyada blits turnirində qızıl medal qazanıb



Azərbaycan şahmatçısı Eltac Səfərli İspaniyada açıq turnir çərçivəsində keçirilən blits yarışında uğurla çıxış edib.

Təmsilçimiz doqquz turdan 7,5 xal toplayaraq birinci yeri tutub.

Qeyd edək ki, şahmatçımız yarışın güclü A turnirində isə mübarizəsini davam etdirir. Belə ki, səkkiz turun nəticəsinə görə E.Səfərli 6 xalla üçüncü yerdədir.

## Həmvətənimiz karate-kempo üzrə XXVI dünya çempionatında qızıl medal qazanıb



Avstriya Azərbaycanlılar Assosiasiyasının rəhbəri Fərid Əzizov karate-kempo üzrə Macarıstanın paytaxtı Budapeştdə keçirilmiş XXVI dünya çempionatında qızıl medal qazanıb.

Bütün rəqiblərinə qalib gəlmiş F.Əzizov fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

F.Əzizov medalların təqdim olunması mərasimində çıxış edərək Diasporla İş üzrə Dövlət Komitəsi adından çempionatın təşkilatçılarına Azərbaycan mədəniyyətinin rəmzi olan suvenirlər təqdim edib. O, çempionatda qələbəsini Vətən uğrunda canlarından keçmiş şəhidlərə həsr etdiyini bildirib.

## Azərbaycanın 2 parataekvondoçusu reytinq turnirində qızıl medal qazanıb



Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin parataekvondo idman növü üzrə milli komandasının üzvləri Zeynalov Sabir (58 kq, K44) və Xəlilov İmaməddin (70 kq, K44) Səudiyyə Ərəbistanın Ər-Riyad şəhərində keçirilən Qran-Pridə bütün rəqiblərinə qalib gələrək yarışın qızıl medallarını qazanıblar.

## Futbol üzrə on yeddi yaşadək yığmamız Avropa çempionatında dördüncü qrupda yer alıb



Futbol üzrə on yeddi yaşadək futbolçulardan ibarət Azərbaycan milli komandasının Avropa çempionatının seçmə mərhələsindəki rəqibləri məlum olub.

Millimiz dördüncü qrupda Serbiya, Sloveniya və Lüksemburq yığmaları ilə mübarizə aparacaq. Oyunlar oktyabrın 21, 24 və 27-də Serbiyada keçiriləcək.

## Portuqaliyalı futbolçu Pepe rekorda imza atıb



Portuqaliyalı futbolçu Pepe Qətərdə keçirilən dünya çempionatında rekorda imza atıb.

Mundialın pley-off mərhələsində İsveçrə ilə qarşılaşmada fərqlənən Pepe dünya çempionatlarının pley-off mərhələsində qol vuran ən yaşlı futbolçu olub. Müdafiəçi bu uğura 39 yaşında (3 aydan sonra onun 40 yaşı tamam olacaq) nail olub.

Qeyd edək ki, Portuqliya millisi rəqibini 6:1 hesabı ilə məğlub edərək dörddəbir finala yüksəlib. Növbəti mərhələdə komanda Mərakeş seçməsi ilə qarşılaşacaq.

**AZƏRTAC-ın materialları əsasında**

Baş redaktorun müavini kapitan Məhəmməd NƏSİRLİ

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

Ünvanımız
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
Bəxtiyar ƏLİYEV

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1210
Nüsxə 4740